## AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI

## ƏMR

**4 may 2026-cı il** **10-1/3-1-68/2026**

**“Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsi”nin yaradılması, Palatanın strukturunda bəzi dəyişikliklərin edilməsi barədə”**

Azərbaycan Respublikası Auditorlar Palatasının ölkədə auditor fəaliyyətinin tənzimlənməsi, auditor peşəsinin nüfuzunun qorunması, audit xidmətlərinin keyfiyyətinin yüksəldilməsi, auditor xidməti göstərən subyektlərin qanunvericiliyə, peşə standartlarına, etik davranış qaydalarına riayət olunması, icra intizamında olan problemlərin aradan qaldırılması və ictimai etimad prinsiplərinə uyğun fəaliyyət göstərməsinin təmin edilməsi sahəsində üzərinə düşən vəzifələrin müasir çağırışlara uyğun daha səmərəli, sistemli və nəticəyönümlü şəkildə icrası yeni təşkilati və idarəetmə yanaşma tələb edir.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində milli qanunvericilikdən, hədəfli maliyyə sanksiyalarına dair normativ hüquqi aktlardan, beynəlxalq audit və etik davranış standartlarından, riskəsaslı nəzarət yanaşmasından və müasir komplayns tələblərindən irəli gələn vəzifələrin tam, vaxtında və keyfiyyətlə icrası, o cümlədən icra intizamının möhkəmləndirilməsi auditor peşəsinin etibarlılığının, maliyyə sisteminin dayanıqlılığının və iqtisadi dövriyyənin şəffaflığının təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Müasir dövrdə auditor fəaliyyəti yalnız maliyyə hesabatlarının yoxlanılması ilə məhdudlaşmır, iqtisadi münasibətlərdə şəffaflığın, hesabatlılığın, hüquqi müəyyənliyin, korporativ intizamın, maliyyə dürüstlüyünün və ictimai etimadın təmin edilməsində mühüm institusional mexanizm kimi çıxış edir. Bu baxımdan auditor nəzarətinin, xüsusi

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D

auditlərin, forenzik təhlillərin, komplayns mexanizmlərinin, peşə etikası üzrə monitorinqin, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəliklərə riayət olunmasına nəzarətin və hüquqi ekspertiza fəaliyyətinin vahid idarəetmə sistemi çərçivəsində əlaqələndirilməsi Palatanın fəaliyyətinin strateji mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Palatanın strukturunda bu sahələr üzrə mövcud olan funksiyaların müxtəlif struktur bölmələrində əlaqəli səlahiyyətlərin ayrı-ayrı idarə və şöbələr üzrə bölünməsi, daxili nəzarət, xüsusi audit, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, icra intizamına riayətə nəzarətin artırılması, peşə etikası, komplayns, hüquqi ekspertiza və forenzik təhlil istiqamətləri arasında vahid metodoloji və idarəetmə koordinasiyasının daha da gücləndirilməsinə ehtiyac yaratmışdır. Bu ehtiyac Palatanın daxili idarəetmə modelinin yenilənməsini, funksional təkrarlanmaların aradan qaldırılmasını, risklərin erkən aşkarlanması və sistemli qiymətləndirilməsi mexanizmlərinin mərkəzləşdirilməsini zəruri edir.

Audit sistemində şəffaflığın, peşə məsuliyyətinin, hüquqi əsaslılığın, icra intizamının, etik davranışın və komplayns mədəniyyətinin daha da möhkəmləndirilməsi məqsədilə xüsusi auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə yoxlamalar, hədəfli maliyyə sanksiyalarına uyğunluq, forenzik təhlil, daxili nəzarət, peşə etikası monitorinqi və hüquqi ekspertiza funksiyalarının bir idarə daxilində cəmləşdirilməsi Palatanın nəzarət və tənzimləmə imkanlarının genişləndirilməsinə, qərarların daha əsaslandırılmış qəbuluna, riskəsaslı yanaşmanın institusional tətbiqinə və nəticələrin icra intizamı ilə bağlılığının təmin olunmasına hədəflənmişdir.

Bu məqsədlə Palatanın strukturunda Xüsusi auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, daxili nəzarət, komplayns, peşə etikası, forenzik təhlil və hüquqi ekspertiza istiqamətlərini vahid təşkilati çərçivədə birləşdirən yeni idarəetmə modelinin formalaşdırılması, mövcud struktur bölmələrinin funksiyalarının bu modelə uyğun yenidən bölgüsü, səlahiyyətlərin təkrarlanmasının aradan qaldırılması, cavabdehlik və hesabatlılıq zəncirinin dəqiqləşdirilməsi, hüquqi və metodoloji təminatın gücləndirilməsi zəruri hesab olunur və Xüsusi auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət, Forenzik təhlil, Komplayns, Peşə etikası, Hüquqi ekspertiza, Riskəsaslı monitorinq və İcra intizamı üzrə funksiyaların vahid idarəetmə mexanizmi çərçivəsində təşkili, bu sahələr üzrə səlahiyyətlərin təkrarlanmasının aradan qaldırılması, nəzarət və hesabatlılıq sisteminin gücləndirilməsi,

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D

Palatanın struktur bölmələri arasında funksional əlaqələndirmənin təkmilləşdirilməsi və institusional idarəetmə effektivliyinin artırılması məqsədilə,

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununu, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qanunvericilikdən irəli gələn tələbləri, hədəfli maliyyə sanksiyalarına dair normativ hüquqi aktları, Azərbaycan Respublikası Auditorlar Palatasının haqqında Əsasnaməsini, Palatanın daxili normativ aktlarını və Palatanın struktur idarəetmə səlahiyyətlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1.1. Azərbaycan Respublikası Auditorlar Palatasının strukturunda, birbaşa Palata sədrinə tabe olan,

“**Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarə”**si adlı yeni idarə yaradılsın.

1.2. Müəyyən edilsin ki, Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsi Palatanın və auditor xidməti göstərən subyektlər üzrə komplayns, hüquqi təminat, hüquqi ekspertiza, xüsusi audit, forenzik təhlil, etik nəzarət, risk monitorinqi, peşə nəzarəti, daxili nəzarət üzrə yoxlama, hüquqi monitorinq, intizam-hüquqi müşayiət və xüsusi araşdırma funksiyalarını həyata keçirən struktur bölmədir.

1.3. İdarənin fəaliyyəti qanunçuluq, obyektivlik, peşəkar müstəqillik, riskəsaslı yanaşma, məxfilik, sübutların bütövlüyü, hüquqi müəyyənlik, hesabatlılıq, etik davranış, komplayns və idarəetmə məsuliyyəti prinsipləri əsasında təşkil edilsin.

1.4. İdarənin fəaliyyətində xüsusi auditlər, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində nəzarət, hədəfli maliyyə sanksiyalarına uyğunluq, forenzik təhlil, peşə etikası, daxili nəzarət, hüquqi ekspertiza və metodoloji təminat vahid funksional sistem kimi tətbiq edilsin.

2.1 İdarənin tərkibində aşağıdakı struktur bölmələr yaradılsın

**2.1.1. Xüsusi Auditlər və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə Şöbəsi;**

**2.1.2. Daxili Nəzarət və Komplayns Şöbəsi;**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D

**2.1.3. Peşə Etikasının Hüquqi Təminatı və Monitorinqi Şöbəsi;**

**2.1.4. Hüquqi Ekspertiza, Forenzik Təhlil və Metodoloji Təminat Şöbəsi.**

2.2. Xüsusi Auditlər və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə Şöbəsi xüsusi auditlərin, səlahiyyətli dövlət orqanlarının sifarişi əsasında aparılan auditlərin, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və hədəfli maliyyə sanksiyaları üzrə yoxlamaların, riskəsaslı nəzarət tədbirlərinin və auditor xidməti göstərən subyektlər üzrə xüsusi yoxlama prosedurlarının icrasını təmin etsin.

2.3. *Daxili Nəzarət və Komplayns Şöbəsi* auditor xidməti göstərən subyektlərin daxili nəzarət mühitinin, komplayns mexanizmlərinin, hüquqi uyğunluq baxışlarının, daxili risk indikatorlarının və nəzarət prosedurlarının qiymətləndirilməsini həyata keçirsin.

2.4. *Peşə Etikasının Hüquqi Təminatı və Monitorinqi Şöbəsi* auditor xidməti göstərən subyektlər tərəfindən peşə etikası prinsiplərinə, habelə BAS-a uyğun Etika Məcəlləsinin tələblərinə riayət olunmasının hüquqi təminatını və monitorinqini həyata keçirsin.

2.5. *Hüquqi Ekspertiza, Forenzik Təhlil və Metodoloji Təminat Şöbəsi* Palatanın əmr, sərəncam, Şura qərarı, əsasnamə, reqlament, qayda, prosedur, müqavilə və digər hüquqi nəticə doğuran sənəd layihələrinin hüquqi ekspertizasını, xüsusi audit və nəzarət materialları üzrə forenzik təhlili, sübutların hüquqi rejiminə nəzarəti, hüquqi monitorinqi, intizam-hüquqi müşayiəti və idarənin metodoloji sənədlərinin hazırlanmasını təmin etsin.

3.1. Palatanın strukturunda mövcud olan *Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə İdarəsi* ləğv edilsin.

3.2. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə İdarəsinin tərkibində fəaliyyət göstərən aşağıdakı şöbələr ləğv edilsin:

3.2.1. *Dövlət orqanları ilə iş şöbəsi*;

3.2.2. *Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı mübarizə şöbəsi*.

3.3. Palatanın strukturunda mövcud olan *Auditin təşkili, hesabatlıq və icra intizamına nəzarət İdarəsinin tərkibində fəaliyyət göstərən Audit sistemində icra intizamına nəzarət şöbəsi* ləğv edilsin.

3.4. Palatanın strukturunda mövcud olan *Haqsız rəqabətə qarşı mübarizə və beynəlxalq əlaqələr İdarəsi*nin tərkibində fəaliyyət göstərən *Peşə etikasının tətbiqi şöbəsi* ləğv edilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D

3.5. Bu əmrin 3.1–3.4-cü bəndlərində göstərilən struktur bölmələrinin funksiyaları təyinatına uyğun olaraq bu əmrələ yeni yaradılmış İdarəinin və onun tərkibində təşkil edilmiş müvafiq şöbələrin fəaliyyət istiqamətlərinə inteqrasiya edilsin.

3.6. Ləğv edilən struktur bölmələrinə aid sənədlər, icrada olan materiallar, reyestrlər, xidməti yazışmalar, hesabatlar, arxiv materialları, metodoloji sənədlər və digər aidiyyəti məlumat daşıyıcıları akt əsasında bu əmrələ yeni yaradılmış İdarəyə təhvil verilsin.

4.1. Müəyyən edilsin ki, funksional varislik və səlahiyyətlərin ötürülməsi məqsədilə bu əmrlə yeni yaradılmış İdarə bu əmrlə ləğv edilən struktur bölmələrinin funksional varisi hesab olunur.

4.2. Ləğv edilən struktur bölmələrinin aşağıdakı fəaliyyət istiqamətləri yeni yaradılmış idarənin funksional səlahiyyətlərinə aid edilsin:

4.2.1. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) və hədəfli maliyyə sanksiyaları üzrə nəzarət və yoxlama tədbirləri;

4.2.2. dövlət orqanları ilə Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM), xüsusi audit, forenzik təhlil və aidiyyəti nəzarət məsələləri üzrə işgüzar əlaqələndirmə;

4.2.3. auditor xidməti göstərən subyektlər üzrə icra intizamı, nəzarət və riskəsaslı monitorinq;

4.2.4. peşə etikası, peşə müstəqilliyi və etik davranış tələblərinə riayət olunmasının monitorinqi;

4.2.5. xüsusi auditlər, xidməti araşdırmalar, forenzik təhlillər və yüksək riskli yoxlama materiallarının hazırlanması;

4.2.6. hüquqi ekspertiza, intizam-hüquqi müşayiət, sübutların idarə edilməsi və metodoloji təminat.

4.3. Ləğv edilən struktur bölmələrinin icrasında olan işlər yeni yaradılmış idarə tərəfindən davam etdirilsin və bu işlər üzrə hüquqi, faktoloji və təşkilati ardıcıllıq təmin edilsin.

4.4. Ləğv edilən struktur bölmələri tərəfindən başlanılmış, lakin yekunlaşdırılmamış yoxlamalar, monitorinqlər, araşdırmalar, yazışmalar və rəy layihələri üzrə məsul icraçılar İdarə rəisinin təqdimatı əsasında müəyyən edilsin.

5.1. Yeni yaradılmış “**Xüsusi Auditlər, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə, Daxili Nəzarət və Forenzik Təhlillər İdarəsi”nin** əsasnaməsi bir həftə ərzində təsdiqə təqdim edilsin.(əlavə olunur).

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D

5.2. Əsasnamə ilə idarənin hüquqi statusu, fəaliyyət istiqamətləri, vəzifələri, hüquqları, şöbələr üzrə funksional bölgü, tabelik qaydası, işin təşkili, hesabatlılıq, sənəd dövriyyəsi, hüquqi ekspertiza, xüsusi audit, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) yoxlamaları, forenzik təhlil, daxili nəzarət, komplayns, peşə etikası və metodoloji təminat mexanizmləri müəyyən edilir.

5.3. Palatanın qüvvədə olan daxili normativ, tənzimləyici və metodiki sənədləri ilə bu Əsasnamənin müddəaları arasında audit fəaliyyəti üzrə qanunvericiliyin tətbiqi mexanizmləri, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) və hədəfli maliyyə sanksiyaları sahəsində normativ tələblərə riayət olunmasına nəzarət, BAS, peşə etikası standartları, hüquqi texnika və normayaratma qaydalarından irəli gələn tələblərin tətbiqi ilə bağlı eyni məsələ üzrə fərqli tənzimləmə və ya ziddiyyət yarandıqda, Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmamaq şərtilə, bu Əsasnamənin müddəaları üstün tətbiq edilir.

6.1. Palatanın müvafiq struktur bölmələrinə tapşırılsın ki, yeni yaradılmış idarənin ştat cədvəli üzrə əmr hazırlayıb Palata sədrinə bir gün ərzində təqdim etsinlər.

6.2. Ləğv edilən struktur bölmələrində çalışan əməkdaşların yeni yaradılmış idarədə və ya Palatanın digər struktur bölmələrində yerləşdirilməsi məsələsi əmək qanunvericiliyinin tələbləri, xidməti zərurət, ixtisas uyğunluğu və Palatanın struktur ehtiyacları nəzərə alınmaqla həll edilsin.

7.1. Ləğv edilən struktur bölmələrinin bütün sənədləri, icraatda olan materialları, elektron və kağız daşıyıcılardakı məlumatları, reyestrləri, rəsmi yazışmaları, hesabatları və arxiv materialları komissiya qaydasında təhvil-təslim edilsin.

7.2. Təhvil-təslim zamanı hər bir sənəd və material üzrə məzmun, tarix, icra vəziyyəti, məsul şəxs, məxfilik dərəcəsi və növbəti icra tədbiri ayrıca göstərilsin.

7.3. Xüsusi audit, Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM), peşə etikası, icra intizamı və dövlət orqanları ilə yazışmalara dair materiallar üzrə məxfilik və xidməti istifadə rejimi qorunsun.

7.4. Təhvil-təslim aktları Palata sədrinə və yeni yaradılmış idarənin rəisinə təqdim edilsin.

8.1. Bu əmrin icrası ilə əlaqədar keçid dövründə icrada olan məsələlərin dayandırılmasına, gecikdirilməsinə və ya nəzarətsiz qalmasına yol verilməsin.

8.2. Ləğv edilən struktur bölmələrinin icrasında olan təxirəsalınmaz məsələlər yeni yaradılmış idarə tərəfindən davam etdirilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D

8.3. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM), hədəfli maliyyə sanksiyaları, xüsusi audit, peşə etikası, icra intizamı və forenzik təhlil üzrə yüksək riskli materiallar üzrə fasiləsiz nəzarət təmin edilsin.

8.4. Dövlət orqanları ilə aparılan yazışmalar və icraatda olan tapşırıqlar üzrə institusional ardıcıllıq qorunsun, müvafiq cavabların hazırlanması və təqdim edilməsi yeni yaradılmış idarə tərəfindən təmin edilsin.

9.1. Bu əmrin icrasının təşkilinə ümumi nəzarət Auditorlar Palatasının icraçı direktoru Səbuhi Gülməmmədov tərəfindən tərəfindən həyata keçirilsin.

9.2. Aidiyyəti struktur bölmələri bu əmrdən irəli gələn struktur, kadr, sənəd dövriyyəsi, hüquqi ekspertiza, arxiv və hesabatlılıq məsələləri üzrə zəruri tədbirləri həyata keçirsinlər.

9.4. Bu əmrin tələblərinin icrasında gecikmə, sənədlərin natamam təhvil verilməsi, məlumatların gizlədilməsi, icraatda olan materialların düzgün rəsmiləşdirilməməsi və ya məxfilik rejiminin pozulması xidməti intizamın pozulması kimi qiymətləndirilsin.

10.1. Palatanın strukturuna dair əvvəlki daxili sənədlər bu əmrlə müəyyən edilmiş dəyişikliklərə uyğunlaşdırılsın.

10.2. Bu əmrin icrası ilə əlaqədar Palatanın daxili normativ aktlarında, struktur sxemində, vəzifə təlimatlarında, iş bölgüsü sənədlərində və hesabatlılıq formalarında zəruri dəyişikliklər hazırlansın.

10.3. Bu əmr imzalandığı gündən qüvvəyə minir.

10.4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/mawx73i3e9ZVx4Q%2FUcjnP4Pg7BPPTB16yAMQMHyLm08%3D